Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 204 (1332) 4 noyabr - 5 noyabr 2016-cı il

# DAHA BÖYÜK UĞURLARA İDDİALI ZAQATALA...

(əvvəli ötən saylarımızda)

**Nazirlər Kabinetinin iclasında cənab İlham Əliyev yekun nitqində aqrar məsələlərə, xüsusi ilə rayon üçün ənənəvi olan tütünçülüyün və fındıqçılığın inkişaf edilməli olduğunu ön plana çəkmişdir. O, tütünçülüyə xüsusi yer verərək demişdir: "Bu il keçən ilə nisbətən iki dəfə çox tütün istehsal ediləcək. Ancaq əlbəttə ki, bu rəqəm - 2500 ton bizi qane edə bilməz. Biz qısa müddət ərzində quru tütün istehsalını 10 min tona qaldırmalıyıq. Tütünçülüklə 14 rayonda məşğuldurlar. Bilirəm ki, bu yaxınlarda müəyyən edilən subsidiyalar rayon sakinlərini ruhlandırdı və dövlət də öz dəstəyini mütləq verməlidir. Quru tütünün ixracı ilə bağlı ciddi problemlər yoxdur. Ölkələr var ki, onu alırlar, gözləyirlər".**

Daha sonra cənab İlham Əliyev Zaqatala üçün də xarakterik olan digər sahənin - qərzəkli meyvəçiliyin inkişaf etdirilməsi ilə bağlı öz tapşırıqlarını verərək demişdir: "Mən artıq əvvəlki müşavirədə qeyd etmişəm və bir daha demək istəyirəm ki, bizə valyuta gətirən kənd təsərrüfatı sahələrinin inkişafı lazımdır. Onların arasında fındıqçılığın çox böyük potensialı var. Bizə ən çox valyuta gətirən kənd təsərrüfatı məhsullarından biri fındıqdır. Yeni təkliflər hazırlanır. Qırx min hektarda yeni fındıq bağları salınmalıdır. Mövcud fındıq bağlarının həcmi ondan azdır. Ona görə, biz fındıq bağlarını 2 dəfədən çox artıracağıq".

Odur ki, rayonda fəaliyyət göstərən əlaqədar təşkilatlar-kənd təsərrüfatı idarəsi, o cümlədən fermer təsərrüfatları bütün imkanları səfərbər edərək cənab Prezidentin bu sahədə olan tapşırıqlarını yerinə yetirmək üçün səylə çalışırlar.

**"...Son illərdə Azərbaycanın bütün bölgələrində müasir xəstəxanalar tikilir, təmir olunur, diaqnostika mərkəzləri inşa olunur. Son 11 il ərzində Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş, təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuşdur. Bu, insanlara göstərilən diqqətin təzahürüdür".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



### *Ekoloji məsələlər diqqət mərkəzində*

2016-cı ilin 9 ayında rayonda ekoloji məsələlər də diqqət mərkəzində saxlanılmış, ətraf mühitin mühafizəsi məqsədi ilə inzibati tədbirlər həyata keçirilərək 30857 manat cərimə tətbiq olunmuşdur. 2200 ədədi yol kənarlarında olmaqla, 74900 ədəd ağac əkilmişdir. Rayonda 457 ha sahədə meşə əkininə xidmət olunmuş, 40.5 ha sahədə isə mədəni meşə əkilmişdir.

Torpaqların sel sularından mühafizə edilməsi, suvarma şəbəkəsinin təmiri və əhatəsinin genişləndirilməsi, suvarma suyundan səmərəli istifadə edilməsinə diqqət artırılaraq 6 kəndin 2101 ha əkin sahəsinin suvarılmasına xidmət edən iki pilləli "Alazan" nasos stansiyasının suvarma şəbəkəsinin bərpası davam etdirilmişdir. Ölkə Prezidentinin 16 dekabr 2015-ci il tarixli eləcə də, 01 iyul 2016-cı il tarixli "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamlarının icrası olaraq 2016-cı ildə rayonun Muxax, Bəhmətli, Kebeloba, Yengiyan, Çobankol, Aşağı Tala, Yuxarı Tala, Yeni Suvagil, Car, Göyəm kəndləri və Əliabad qəsəbəsində 12 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

### *Tikinti və abadlıq işlərinin miqyası genişlənir, yeniliklər tətbiq olunur*

Hesabat dövründə Zaqatala rayonunda tikinti, təmir və abadlıq işləri davam etdirilmiş, bütün maliyyə mənbələri hesabına 7 milyon 390 min manat dəyərində tikinti, təmir və abadlıq işləri görülmüşdür. Keçən dövr ərzində rayon Məhkəməsi üçün yeni inzibati binanın tikintisi davam etdirilmiş, rayonda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsinin - 3 ədəd 45 mənzilli yaşayış binasının, 150 şagird yerlik tam orta məktəbin, 50 yerlik uşaq bağçasının, klub binasının, tibb məntəqəsinin, ATS binasının və digər qurğuların tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə Qarabağ əlillərinin və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa edilən 13 fərdi yaşayış evində tikinti işləri başa çatdırılaraq açılışları olmuş, Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi tərəfindən 6 mesheti türkü ailəsinə Fındıqlı kəndində fərdi yaşayış evlərinin tikintisinə başlanılmışdır.

RİH tərəfindən 04 aprel 2016-cı il tarixdə şəhid olmuş Muxax kənd sakini Nurayev Rəvan İsmayıl oğlunun ailəsinin mənzil şəraitinin yaxşılaşdırılması üçün ümumi sahəsi 86 kv.metr olan üç otaqlı, Uzunqazmalar kənd sakini 1-ci qrup əlil Quliyeva Könül Əlipaşa qızına ümumi sahəsi 60 kv.metr olan iki otaqlı fərdi yaşayış evləri tikilib istifadəyə verilmişdir.

İlin doqquz ayı ərzində rayonda məktəbəqədər təhsil müəssisələrinin tikintisi və təmiri, onların maddi-texniki bazalarının gücləndirilməsi istiqamətində də işlər davam etdirilimiş, Fındıqlı kənd uşaq bağçası təmir edilərək yeni inventar və avadanlıqlarla təchiz edilmiş, Yuxarı Tala kənd 2 saylı uşaq bağçasında cari təmir işləri aparılmış, Şəhər 1 və 13 saylı uşaq bağçalarında cari təmir işlərinə başlanılmışdır. Azərbaycan Kənd İnvestisiya layihəsi çərçivəsində Kəpənəkçi kənd tibb məntəqəsi yenidənqurma və əsaslı təmir işləri aparılaraq sakinlərin istifadəsinə verilmişdir.

Sahibkarlar tərəfindən rayonda yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksək mərtəbəli yaşayış binalarının tikintisi davam etdirilmiş, ümumi sahəsi 3402 kvm olan 25 fərdi yaşayış evi inşa edilmişdir.

Cari ilin ötən dövründə rayonda aparılan abadlıq və quruculuq işləri davam etdirilmiş şəhərdə 12 çoxmənzilli 5 mərtəbəli yaşayış binasında təmir işləri aparılmış, rayon üzrə qeyri-məşğul əhalinin ödənişli ictimai əmək fəaliyyətinə cəlb edilməsi məqsədilə 16 ədəd çoxmənzilli yaşayış binasında ümumilikdə 13744 kv m dam örtükləri əsaslı təmir edilmiş, Azərbaycan prospekti 39 saylı binanın həyətində altıaçığın və H.Əliyev prospekti 37 saylı binanın həyətində 2 yerlik sanitar qovşağının tikintisi başa çatdırılmışdır. Şəhərin küçələrinə 1150 metr uzunluğunda elektik kabeli çəkilmiş, 250 kvm tamet örtüyü, 190 kvm təbii üzlük daş döşənmiş, 1500 metr uzunluğunda yağış sularının kənarlaşdırılması üçün küçə arxları çəkilmiş, 4000 pm beton səki daşı quraşdırılmış, yaşıllıq zolağı salınaraq 1100 metr uzunluğunda su xətti aparılmış, 315 kubmetr torpaq daşınmış, 31100 kvm asfalt örtüyü döşənmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ